## Qış turizmi inkişaf edir

Regionlarda qış aylarında normal istirahətə imkan verəcək müasir turizm obyektlərinin inşası prosesi sürətlənib.

Bir çox dünya ölkələrində qaynar turizm mövsümü kimi yay fəsli qəbul edilsə də, sərt qış aylarının yaratdığı üstünlüklərdən yararlanaraq istirahətin «dadını çıxarmaq» istəyənlərin də sayı az deyil. Ümumdünya Turizm Təşkilatının statistikasına əsasən, hər il dünya üzrə turistlərin təxminən 30-35%-i istirahət mərkəzlərinə məhz qız aylarında üz tuturlar. Əsasən İsveçrə, Skandinaviya ölkələri, Çexiya, Kanada, ABŞ və Rusiya qış turizminin yüksək inkişaf etdiyi ölkələr hesab olunur.

***Müasir infrastruktur təminatı...***

Son illər Azərbaycanda yüksək turizm infrastrukturunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Lakin hələlik bir sıra obyektiv və subyektiv səbəblərdən qış aylarında istirahətə meyil edənlərin sayının azlığı ciddi problem kimi diqqəti çəkir. Statistikaya görə, qış aylarında istirahətə üstünlük verənlərin sayı ölkə üzrə ümumi turistlərin təxminən 5-8%-ni təşkil edir. Orta statistik azərbaycanlının, əsasən, isti aylarda istirahətə maraqlı olması arqumenti nə qədər əsaslı görünsə belə, qış turizminə əngəl yaradan müəyyən problemlərin mövcudluğu da etiraf olunmalıdır. Xüsusən də qış fəslində normal istirahətə imkan verən yüksək infrastrukturlu turizm obyektlərinin olmaması ən ciddi problem kimi özünü göstərir. Məhz bu səbəbdən də qış istirahətinə üctünlük verən həmvətənlərimiz, əsasən, Gürcüstan və Rusiyaya, eləcə də Çexiya Respublikasına üz tuturlar. Bunun əsas səbəblərindən biri də Azərbaycanda qış turizm obyektlərində qiymətlərin qaneedici olmamasıdır.

Mədəniyyət və Turizm Nazirliyinin turizm şöbəsinin müdiri Aydın İsmiyev hesab edir ki, mövcud problemin əsaslı həlli istiqamətində hökumət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Onun sözlərinə görə, ölkədə yol infrastrukturunun müasirləşdirilməsi, elektrik enerjisi, təbii qazla bağlı problemlərin həllini tapması qış turizmi sahəsində mövcud vəziyyətin müsbətə doğru dəyişməsinə imkan yaradır: «Turistlərin istirahət baxımından dəyərləndirdikləri əsas amillərdən biri yüksək səviyyəli xidmət və infrastrukturun mövcudluğudur. Bu baxımdan, son illər hökumət səviyyəsində həyata keçirilən tədbirlər regionlarımızda ilin bütün fəsillərində istirahətə imkan yaradacaq. Ən ucqar kəndlərə yeni yolların çəkilməsi, regionların qaz, elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması qış turizminin inkişafına əsaslı təsirini göstərəcək».

***Unikal turizm layihələri...***

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə qış turizminin inkişafı məqsədilə 2009-cu ildə Qusar rayonundan 30 kilometr şimalda, dəniz səviyyəsindən 2500 metr yüksəkdə «Şahdağ» Qış-Yay Turizm Kompeksinin tikintisinə başlanılıb. 5 minə yaxın turisti eyni zamanda qəbul edə biləcək obyektin bu qış mövsümündə istifadəyə verilməsi nəzərdə tutulur. Qış idman növlərinin: əsasən, xizəksürmənin inkişafına təkan verəcək bu unikal obyektdə süni qaryaratma avadanlıqları quraşdırılacaq. Düşən yağıntının miqdarından asılı olmayaraq, qış mövsümündə xizək yollarının açıq qalmasına şərait yaradacaq belə qurğular dünyanın bütün tanınmış qış kurortlarında mövcuddur. Dağ relyefi ilə kəsişən yol isə beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına müvafiq olub, ilin bütün fəsillərində nəqliyyatın maneəsiz gedişinə şərait yaradacaq.

Azərbaycan Turizm Assosiasiyasının rəhbəri Nahid Hacıyev Şahdağ Milli Parkının ərazisində reallaşdırılan bu kompleksin Azərbaycanda qış turizminin inkişafına ciddi təkan verəcəyi qənaətindədir: «Kompleksin yaşayış obyektləri müxtəlif planlı olacaq: şimal-qərb hissədə fərqli həcmdə üç, dörd, beşulduzlu hotellər, kiçik yaylaq evləri, kotteclər inşa olunur. Həmçinin, burada ticarət mərkəzlərinin, restoranların, əyləncə obyektlərinin, turistləri xizək yolunun zirvəsinə aparan əsas kanat stansiyasının tikintisi nəzərdə tutulub. Kompleksin şərq ərazisində bir-iki günlük istirahətə gəlmiş qonaqların qəbulu üçün kempinqlərin yerləşdiyi daha bir istirahət zonası salınır. Bu sxem sıxlıq yaranması ehtimalını aradan qaldıraraq, turist axınının yerləşdirilməsinə, həmçinin kompleksin əsas zonasına avtonəqliyyat girişinin məhdudlaşdırılmasına imkan verəcək. Ümumilikdə, layihə qış turizmi sahəsində çox mühüm irəliləyişlərə səbəb olacaq».

Qusarla yanaşı, Azərbaycanın əsas turizm marşrutlarından sayılan Qəbələdə də qış turizminin inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir. Rayonun turizm potensialının möhkəmləndirilməsi məqsədilə «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinin inşası sürətlə

davam etdirilir. Dağlıq ərazidə istirahət üçün əlverişli şəraitə malik olacaq bu sağlamlıq-turizm obyekti Qəbələ şəhərindən təxminən dörd kilometr aralıdadır. Kompleksin inşa edilməsi turistlər üçün ilin bütün fəsillərində ekskursiya və digər istirahət imkanlarını təmin etməklə yanaşı, onların qış idman növləri ilə məşğul olmalarına da şərait yaradacaq.

Bundan başqa, hazırda Zaqatala, Şəki, Balakən və Daşkəsən rayonlarının ərazisində də qış turizminin inkişafına imkan verəcək müasir tipli kurortlar inşa olunur. Bütün bunlar regionlarda yeni iş yerlərinin açılması, vətəndaşların faydalı məşğulluğunun təmin edilməsi baxımından mühüm dividendlər vəd edir.

***Turizm gəlirlərinin artımı proqnozlaşdırılır***

Həyata keçirilən yeni layihələr nəticəsində xarici ölkələrdən Azərbaycana gələn turistlərin sayının ciddi şəkildə artacağı proqnozlaşdırılır. Ümumilikdə, hazırda respublikaya daha çox 4 qonşu ölkədən - Rusiya, Gürcüstan, Türkiyə və İrandan turistlər gəlir.

İqtisadi İnkişaf Nazirliyinin proqnozlarına görə, yaxın illərdə turizm sektoru üzrə daxilolmaların artımı gözlənilir: növbəti 4 ildə Azərbaycanda turizm sahəsi üzrə orta hesabla 21,9%-lik artıma nail olunacaq. Bu artım ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və xidmətlərin genişləndirilməsi, regionlarda və Bakıda müasir standartlara cavab verən yeni mehmanxanaların istifadəyə verilməsi, tarixi abidələrin bərpası kimi tədbirlərin davam etdirilməsi nəticəsində gözlənilir.

Samir MUSTAFAYEV